**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№359/4** **28 sentyabr 2023-cü il**

**“Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TMM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik göstəriş” barədə**

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanunlarının müddəaları, Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun tövsiyələri (FATF), Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin normativ sənədləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nın, Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.2.4-cü “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası” bəndinin və Auditorlar Palatası sədrinin “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu”na (2010-2020-ci illər) dəyişikliklər edilməsi barədə” 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.9-cu bəndinin icrası ilə əlaqədar Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış “Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TMM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik göstəriş”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TMM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik göstəriş” bəyənilsin (əlavə olunur).

2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TMM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik göstəriş”in auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

3. Auditor təşkilatlarına və sərbəst auditorlara tövsiyə edilsin ki, auditor fəaliyyətini həyata keçirərkən “Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TMM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik göstəriş”in tətbiqini təmin etsinlər.

4. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, keyfiyyətə kənar nəzarət üzrə monitorinqin nəticələrinə dair hesabat formasına “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət olunması barədə müvafiq bölmənin əlavə edilməsi təmin edilsin.

5. Auditorlar Palatasının Keyfiyyətin idarə edilməsi şöbəsinin müfəttişlərinə tapşırılsın ki, monitorinqlərin aparılması zamanı auditorlar tərəfindən bu metodik göstərişin müddəalarına əməl olunmasına xüsusi diqqət yetirsinlər.

6. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bu “Metodik göstəriş”in “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun nəşr ediləcək növbəti XII cildinə daxil edilməsi təmin edilsin.

7. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2019-cu il 18 noyabr tarixli 314/3 nömrəli qərarı ilə bəyənilmiş “Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TMM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik göstəriş” qüvvədən düşmüş hesab edilsin.

8. Bu qərarın və “Metodik göstəriş”in mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**